# Bu siniflərdə dərslər xalça üzərində tədris edilir

## Uşaqların turnikdə idman etdiyi, "buludlar"ın, "ağaclar"ın əhatə etdiyi sinifdən reportaj

Lalə MUSAQIZI

**Sinifə ilk dəfə daxil olanda gözlərimizə inana bilmirik. Xalça döşənmiş sinif və sinifdə hamı evdəki kimi corabdadır. Dərs gedə-gedə bəzi uşaqlar ədəb-ərkanla xalçanın üzərində oturub müəllimə qulaq asır və sualları cavablandırır, bəziləri isə ayaq üstə masanın arxasındadırlar. Hələ sinifdəki "ağaclar", "buludlar", "quşlar" bir ayrı mənzərədir. Özünü təbiət qoynunda hiss edirsən...**



İncəsənət Gimnaziyasında 2 B "Sağlam təhsil" sinfindəyik. Rus bölməsi "Oxu" dərsi keçir. Müəllimlə şagirdlər arasındakı dialoq da ənənəvi siniflərdəkindən fərqlidir:

**Müəllim: Siz ayının gəldiyini görüb dostunuzu qoyub ağaca çıxarsınız?**

Şagirdlər bir ağızdan: Xeyr.

**Müəllim: Niyə?**

Şagird A: Çünki dostumuz tək qalıb qorxar.

Şagird B: Dostu tək qoymaq olmaz.

Şagird C: Mən olsam, dostuma da kömək edərəm, o da ağaca çıxar...

### 35 MƏKTƏBİN 116 SİNFİNDƏ "SAĞLAM TƏHSİL" VAR

Bütün sinif dialoqda iştirak edir. Bizim vaxtımızda, elə indi də ənənəvi siniflərdə "Ayı və iki dost" nağılını uşaqlar təhlil etmədən, sadəcə, oxuyub öyrənir və lövhənin qarşısına çıxıb danışırlar. Bu siniflər isə fərqlidir. Həm quruluş, həm metodika baxımından. Bu, sinifdə uşağın beynini daha çox çalışdırır, özünüifadəni, hadisələrə öz münasibətinin olmasını öyrədir, fikirlərini söyləməyə şərait yaratmaqla uşaqlarda özünə inam formalaşdırırlar. Bunlar uşağın əqli cəhətdən inkişafına yönəlib. Üstəlik, uşaqların sağlam böyüməsləri, sağlam bədənə malik olmaları üçün də xüsusi səy göstərilir...

Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin Pilot layihələrlə iş sektorunun aparıcı məsləhətçisi Afət Süleymanova nazirliyin "Sağlam təhsil - sağlam millət" layihəsi çərçivəsində yaradılan "Sağlam təhsil" sinifləri barədə bizi bilgiləndirir. Məlum olur ki, sözügedən layihəyə 2014-cü ildən start verilib. Həmin il 6 məktəbin 15 sinfində tətbiq edilən layihə 2015-ci ildə Bakı və Sumqayıt şəhərlərində 35 məktəbin 68 sinfində həyata keçirilib. Bu il sıraya 49 məktəb də qoşulub. Hazırda layihə 35 məktəbin 116 sinfində ibtidai siniflərdə tətbiq edilir.

Ənənəvi sinif otaqlarından fərqli olaraq, "Sağlam təhsil" siniflərinin bir hissəsində yerə xalça döşənib və uşaqlar sinifdə ayaqqabısız gəzirlər. Bu da uşaqlara özlərini sərbəst, evdəki kimi rahat hiss etməyə imkan yaradır.

Həkimlər sentyabrda uşaqların boyunu ölçürlər. Boyu balaca olan uşaqlar ön sıralara, ucaboylar isə arxa sıralara yerləşdirilir. Görməsi zəif olub boyu hündür olanlar yan sıralara yerləşdirilir ki, arxada oturanlara maneçilik törətməsinlər. Bir neçə aydan sonra həkim uşaqların boyunu yenidən ölçür. Boyları uzanıbsa, masa buna uyğun tənzimlənir, arxadakının boyundan hündür olubsa, yerləri dəyişdirilir.

"Sağlam təhsil" siniflərinin bir hissəsində isə yerə xalça döşənməyib. Bu sinflərdə yanakı qoyulan partaların hündüründə şagird ayaq üstə durur, digər alçaq partanın arxasında oturmaq üçün stul qoyulub. Uşaqlar 15 dəqiqədən bir pultun siqnalı ilə yerlərini dəyişirlər.

### 15 DƏQİQƏDƏN BİR UŞAQLAR GÖZ MƏŞQİ EDİR

"Sağlam təhsil" siniflərində sinfin künclərində ağac şəkilləri çəkilib. Bu siniflərdə kəsişən xətlər yoxdur, divarların kəsişdiyi xətlər adət etdiyimizdən fərqli olaraq, oval şəklindədir. Alimlərin araşdırmasına görə, kəsişən xətlər uşaqlarda psixoloji gərginlik yaradır. Buna görə də bütün kəsişən xətlər aradan qaldırılıb, kəsişən xətlərin yerində ağaclar, bir az yuxarı hissələrdə buludlar çəkilib. Bu da açıq havada mənzərə effekti yaradır.

Otağın tavanında isə şagirdlərin gözlərinin yorğunluğunu alan rəngli dairələr - rusiyalı alim Dr. Bazarnının patentləşdirdiyi universal simvollar sxemləri çəkilib. Sinifdə quraşdırılmış xüsusi aparatın 15 dəqiqədən bir verdiyi siqnal səsindən sonra uşaqlar sözügedən dairələrə baxaraq xüsusi göz məşqləri edirlər. Məşqlər uşaqların görmə qabiliyyətini tənzimləməklə yanaşı, onların bütün bədənlərinin hərəkət etməsinə, beyinlərinin daha yaxşı işləməsinə gətirib çıxarır.

Sinfin dörd bir tərəfində lampalar qoyulub. Lampalar hər 15 dəqiqədən bir yanıb sönür və uşaqlar müəllimin köməyi ilə cəld lampaların yandığı istiqamətə baxırlar. Bu da uşaqlara baş vermiş hadisəyə çevik reaksiya verməyi öyrədir, həm də bədənləri inkişaf edir.

Masalar 16 dərəcəlik bucaq altında dəyişilir. Afət xanım deyir ki, masaların belə qurulması gözü artıq yükdən, gərginlikdən qoruyur,



eyni zamanda masa arxasında stulların olmaması uşaqların qamətini əyərək müxtəlif skolioz, kefoz və s. kimi onurğada rast gələnən xəstəliklərin baş qaldırmasının qarşısını alır. Uşaq yorulanda döşəmənin üstündə, kənarlardakı stullarda oturur. A.Süleymanova deyir ki, burada yorulma hallarını uşaqlar özləri idarə edirlər: "Elə uşaq var ki, bütün dərs boyu yorulmur. Bizim ənənəvi sinifərdə uşaq yorulub ayağa qalxan kimi müəllim deyir ki, dərsdə ayağa qalxmaq olmaz, əl qaldırmadan danışmaq olmaz. Bu da uşaların sərbəstliyinə mane olur. Psixoloji cəhətdən heç bir təzyiq, təpki görməyən uşaq rahat düşünür, fikri dərsə cəmlənir, stimulu yüksək olur. Bunlar hamısı təlimin keyfiyyətinə təsir göstərir".

### BU SİNİFDƏ UŞAQLAR DAHA SAĞLAM OLUR

Nazirlik rəsmisi sözügedən siniflərin yaradılması üçün müxtəlif ölkələrin təcrübələrindən yararlandıqlarını dedi.

Layihənin ibtidai siniflərdə tətbiqinə gəlincə, A.Süleymanovanın sözlərinə görə, uşağın ən intensiv inkişaf dövrü bu yaşlarda olduğu üçün belə ediblər: "Müqayisəni, dinamikanı, prosesi izləyə bilmək üçün biz bədənlərində deformasiyalar baş verməyən birinci sinif şagirdlərindən başlayırıq.

Uşağın sağlamlığında hələ məktəb xəstəlikləri baş qaldırmadığınan biz yeni gələn uşaqları qəbul etdik. Araşdırmalar göstərir ki, fiziki, psixoloji və idraki inkişaf baxımından "Sağlam təhsil" siniflərindəki uşaqlar ənənəvi siniflərdə təhsil alanlardan daha üstündür. Uşaqların fiziki inkişafında çox ciddi fərqlər var. Ənənəvi siniflərdə gözdə zəifləmə hallarına daha tez-tez rast gəlinir. İstər nitq, istər riyazi, istər kiçik motor bacarıqları, yaradıcı təfəkkürün inkişafı baxımından bu siniflərdə uşaqların inkişafında dinamika daha ürəkaçandır. Baxmayaraq ki, ənənəvi və "Sağlam təhsil" siniflərində eyni proqram, eyni kurikulumlar üzrə təhsil verilir".

Gələcəkdə bütün məktəblərin bu sistemə keçməsinə gəlincə, müsahibimiz bildirdi ki, bu məsələ müzakirə mövzusudur: "Uşaqların sıxlığı, şərait məsələsi nəzərə alınmalıdır. Buna görə də mövzu ətrafında müzakirələr gedir".

### "UŞAQLAR TƏTİLDƏ DƏ MƏKTƏBƏ GƏLMƏK İSTƏYİR"

2 B sinfinin müəlliməsi Süsənbər Xuruci keçən il imtahan verib, Təhsil Nazirliyinin göndərişi ilə bu məktəbə gəlib. Deyir ki, övladının da bu cür sinifdə oxumasını istərdi: "Sinifdə sərbəstlik olduğundan uşaqlar dərsə çox maraqla gəlir. Hətta uşaq tətildə olanda valideyn zəng edir ki, uşağı evə yığa bilmirəm, məktəbi istəyir. Çünki məktəbdə daha maraqlıdır. Uşaq ənənəvi siniflərdəki kimi 45 dəqiqə ardıcıl olaraq parta arxasında oturmur. İstəyəndə xalçada, yaxud kənarlara düzülmüş stullarda oturur, istəyəndə isə ayağa dururlar. Zəng çölə vurulanda oğlanlar sinif otağındakı turnikə qaçır, növbə ilə idman edir, enerjilərini çıxarırlar".

20 ildən çoxdur ibtidai sinif müəlliməsi işləyən Kəmalə Mədətova da "Sağlam təhsil" sinfində dərs deyir. Onun fikrincə, bundan əvvəlki siniflərdə kurikulumla dərs keçsə də, uşaqlar bu qədər hərəkətli, bu qədər fəal deyildilər: "Uşaqlarda tez yorulmalar baş verir. Amma bu layihə uşaqları yorulmağa qoymur, 15 dəqiqədən bir onlarda yeni ocaqlar açılır, onlar ayılırlar, buna görə də diqqətləri dərsdə olur. Hərəkətli olduqlarından səhhətlərində də problem yaranmır". K.Mədətova deyir ki, bu siniflərdə uşaqlar fikirlərini daha sərbəst deyə bilirlər: "Səhvdir, düzdür, fərq etməz, hamı mövzu daxilində öz fikrini söyləyir. Əl qaldırmaq söhbəti, demək olar, yoxdur. Çalışırıq bütün sinif fəaliyyətdə olsun, heç bir uşaq kənarda qalmasın".

### "BURADA BULUDLARI, QUŞLARI, AĞACLARI SEVİRƏM"

Sözügedən siniflərdə təhsil alan şagirdlərlə də həmsöhbət olub siniflərində nəyi sevdiklərini öyrəndik.

Sevinc: "Ən çox xouma gələn istəyəndə durub, istəyəndə xalçanın üzərində oturmağımızdır. Xalçada oturmağı çox sevirəm".

Nuran: "Turnikdən xoşum gəlir, tənəffüs olan kimi turnikə qaçıram, oğlanlarla növbə ilə sallanır, müxtəlif hərəkətlər edirik".

Bənövşə: "Burada buludları, quşları, ağacları sevirəm".

Toğrul: "Buranı evdən daha çox sevirəm. Çünki uşalqarla oynayıram, turnikdə sallanıram, həm də dərs oxuyuram".

### SİNİFLƏRDƏ ŞAGİRDLƏRİ MARAQLANDIRAN MÜHİT YARADILIRSA...

Bizimlə birlikdə "Sağlam sinif"lərdə dərs prosesini izləyən pedaqogika üzrə elmlər doktoru, professor, Moskvadakı Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü Vidadi Xəlilovun fikirlərini də aldıq. O, ənənəvi siniflərlə sözügedən siniflərdəki şagirdlər arasında nəzərəçarpacaq dərəcədə fərq olduğunu dedi: "Təlim prosesinin səmərəliliyi üçün prosesin maraq komponentlərini mütləq nəzərə almaq lazımdır. Əgər sinifdə estetik-emosional vəziyyət yaradılmırsa, yeni şagirdləri maraqlandıran mühit yaradılmırsa, formalaşdırılmırsa, orada ümumi inkişafdan, tərəqqidən söhbət gedə bilməz. Bu siniflərdə isə şagirdləri maraqlandıran mühit yaradılıb. Uşaqlar sərbəst danışır, mühakimə edir, təəssüratlarını bölüşürlər. Uzağa getməyək, ənənəvi siniflərdə müəllimlər dəfələrlə uşaqlara bellərini əyməməyi, gözlərini dəftərə çox yaxınlaşdırmamalarını tapşırırlar. Amma bu siniflərdə uşaqlar ayaq üstə durduqlarından və partalar boylarına uyğunlaşdırıldığından nə qədər istəsələr belə, bellərini əyə bilməzlər. Fiziki inkişaf yoxdursa, şagirdin, tələbənin, magistrin idraki inkişafından da söhbət gedə bilməz. Sevindiricidir ki, bu siniflərdə fiziki inkişafla idraki inkişaf paralel gedir, bir-birinə təkan verir".

"Sağlam təhsil" siniflərindən ayrılırıq. Gələcəkdə bütün məktəblərimizdə şagirdlərə sağlam təhsil verilməsi ümidilə...

